**Bakı Dövlət Universiteti**

**Akkreditasiya qiymətləndirilməsinin nəticəsi olaraq Akkreditasiya Komissiyasının Yekun Hesabatında verdiyi tövsiyə və göstərişlər əsasında hazırlanmış 2023/2024-cü tədris ili üzrə fəaliyyət planının icrasına dair**

# HESABAT

**Hesabat Bakı Dövlət Universitetinin**
**Elmi Şurasının**
**(gün/ay/il) tarixli iclasının qərarı ilə**
**təsdiq edilmişdir.**

**Tarix ______________**

**İmza ______________**
**(müəssisənin rəhbəri)**

**M.Y ______________**

**Bakı – 2024**

## TƏHSİL MÜƏSSİSƏSİNƏ DAİR ÜMUMİ MƏLUMATLAR

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Bakı Dövlət Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Akkreditasiya Şurasının 8 iyun 2023-cü il tarixli qərarı ilə 5 (beş) il müddətinə institusional akkreditasiyadan keçmişdir |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | - |
| Təhsil müəssisəsinin rəhbəri | Elçin Babayev |
| Fakültələrin sayı | 16 |
| Kafedraların sayı | 120 |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 75 |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 49 ixtisas (235 ixtisaslaşma) |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | 20 elm sahəsi üzrə 117 ixtisas |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalan sayı**<br><br>Bakalavriat: 21821;<br>Magistratura: 2190;<br>Fəlsəfə doktorluğu proqramı üzrə: 368;<br>Elmlər doktorluğu proqramı üzrə: 154. |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 1367 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | Əvəzçiliklə: 245 (daxili 182, kənar 63);<br>Saathesabı: 1225. |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | E-mail: info@bsu.edu.az<br>Tel.: (+994 12) 430-32-45 |
| Müəssisənin hüquqi ünvanı | Bakı şəhəri, akademik Zahid Xəlilov küçəsi 33, AZ 1148 |
| Müəssisənin faktiki ünvanı | Bakı şəhəri, akademik Zahid Xəlilov küçəsi 33, AZ 1148 |

1. **STRATEJİ İNKİŞAF**

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin sayını icra statutusuna uyğun olaraq cədvəldə qeyd edin*

| Tövsiyə | Müvafiq tövsiyələr üzrə nəzərdə tutulan fəaliyyətlərin icra vəziyyəti | | |
|---|---|---|---|
| | İcra edilib | İcradadır | İcra edilməyib |
| Risklərin hesablanması, proqnozlaşdırılması, eləcə də idarə olunmasına dair planın tərtib edilməsi | | İcradadır | |

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin icrası ilə bağlı hesabatı cədvəldə qeyd edin*

| № | Tövsiyə | Fəaliyyət | İcra müddəti | Görülmüş işlərlə bağlı məlumat |
|---|---|---|---|---|
| 1.1 | Risklərin hesablanması, proqnozlaşdırılması, eləcə də idarə olunmasına dair planın tərtib edilməsi | Müvafiq planın tərtibi və təsdiqi | 2023 sentyabr-2024 dekabr | Risklərin hesablanması, proqnozlaşdırılması, eləcə də idarəolunmasına dair müvafiq planın tərtibinə başlanılmış və 2024/2025-ci tədris ilinin birinci yarısında tamamlanması nəzərdə tutulur. |

**2. KEYFİYYƏT TƏMİNATI**

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin sayını icra statutusuna uyğun olaraq cədvəldə qeyd edin*

| **Tövsiyə** | **Müvafiq tövsiyələr üzrə nəzərdə tutulan fəaliyyətlərin icra vəziyyəti** | | |
|---|---|---|---|
| | **İcra edilib** | **İcradadır** | **İcra edilməyib** |
| Şöbənin strukturuna yenidən baxılması, fəaliyyətlər (monitorinq, təhlil və s.) üzrə alt strukturların formalaşdırılması | İcra edilib | | |
| Keyfiyyət təminatı komissiyasının təşkil olunması və fəaliyyətinin səmərli təşkili | | İcradadır | |

| | | | |
|---|---|---|---|
| Keyfiyyət strukturu üzrə əməkdaşların peşəkar bacarıqlarının artırılması | İcra edilib | | |
| Digər strukturların keyfiyyət təminatı mexanizmləri üzrə qarşılıqlı əlaqələrinin və məsuliyyət bölgülərinin müəyyən edilməsi | İcra edilib | | |

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin icrası ilə bağlı hesabatı cədvəldə qeyd edin*

| № | Tövsiyə | Fəaliyyət | İcra müddəti | Görülmüş işlərlə bağlı məlumat |
|---|---|---|---|---|
| 2.1 | Şöbənin strukturuna yenidən baxılması, fəaliyyətlər (monitorinq, təhlil və s.) üzrə alt strukturların formalaşdırılması | Keyfiyyət təminatı üzrə yeni strukturun yaradılması və alt strukturlarının formalaşdırılması | 2023 sentyabr-2024 yanvar | 12 iyul 2023-cü il tarixli R-96 nömrəli əmrlə “Keyfiyyət təminatı və monitorinq şöbəsi”nin bazasında Keyfiyyət Təminatı Mərkəzi və onun tərkibində Monitorinq, təhlil və akkreditasiya və Təlim, metodiki dəstək və inkişaf şöbələri yaradılmışdır. |
| 2.2 | Keyfiyyət təminatı komissiyasının təşkil olunması və fəaliyyətinin səmərli təşkili | Keyfiyyət təminatı komissiyasının formalaşdırılması və əsasnaməsinin müvafiq qaydada təsdiq olunması | 2023 sentyabr-2024 iyun | Elmi Şuranın qərarı ilə Keyfiyyət təminatı Komissiyası yaradılmışdır və müvafiq Komissiyanın əsasnaməsinin layihəsi tərtib edilərək müzakirəyə təqdim olunmuşdur. |
| 2.3 | Keyfiyyət strukturu üzrə əməkdaşların peşəkar bacarıqlarının artırılması | Keyfiyyət təminatı mərkəzinin əməkdaşlarının müxtəlif mövzularda təlimlərə cəlb olunması | 2023 sentyabr-2024 yanvar | Keyfiyyət təminatı Mərkəzinin əməkdaşları keyfiyyət təminatı istiqamətində müxtəlif mövzularda təlimlərə cəlb olunmuşlar. Belə ki, rektorun keyfiyyət təminatı üzrə müşavirinin 16 fakültədə əməkdaşlara verdiyi keyfiyyət təminatı istiqaməti üzrə təlimlərə, eləcə də beynəlxalq reytinqlər üzrə konsultantlar tərəfindən təşkil olunan təlimlərə cəlb olunmuşlar. Bununla yanaşı EATDA və TKTA tərəfindən təşkil olunan müvafiq tədbirlərə cəlb olunmuşlar. |

| | | | | |
|---|---|---|---|---|
| 2.4. | Digər strukturların keyfiyyət təminatı mexanizmləri üzrə qarşılıqlı əlaqələrinin və məsuliyyət bölgülərinin müəyyən edilməsi | 2.4.1. Keyfiyyət təminatı mərkəzinin əsasnaməsinin və müvafiq şöbələrin əsasnamələrinin hazırlanması və müvafiq qaydada təsdiqi;<br>2.4.2. Keyfiyyət təminatı istiqamətində fəaliyyət göstərəcək əməkdaşların vəzifə təlimatlarının hazırlanması və müvafiq qaydada təsdiqi. | 2023 sentyabr-2024 iyul | 1. 12 iyul 2023-cü il tarixli R-96 nömrəli əmrlə "Keyfiyyət təminatı və monitorinq şöbəsi"nin bazasında "Keyfiyyət Təminatı Mərkəzi" və onun tərkibində "Monitorinq, təhlil və akkreditasiya" və "Təlim, metodiki dəstək və inkişaf" şöbələri yaradılmışdır. Keyfiyyət təminatı Mərkəzinin və müvafiq şöbələrinin əsasnamələri ayrı-ayrılıqda hazırlanmış və Elmi Şuranın 27 oktyabr 2023-cü il tarixli iclasının (protokol N 11) qərarı ilə təsdiq edilmişdir;<br>2. Keyfiyyət təminatı istiqamətində fəaliyyət göstərəcək əməkdaşların vəzifə təlimatları hazırlanmış və müvafiq qaydada təsdiq edilmişdir;<br>3. Keyfiyyət təminatı Mərkəzinin və müvafiq şöbələrinin Fəaliyyət Planları hazırlanmış və müvafiq qaydada təsdiq edilmişdir. |

## 3.TƏLİM VƏ TƏDRİS

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin sayını icra statutusuna uyğun olaraq cədvəldə qeyd edin*

| **Tövsiyə** | **Müvafiq tövsiyələr üzrə nəzərdə tutulan fəaliyyətlərin icra vəziyyəti** | | |
|---|---|---|---|
| | **İcra edilib** | **İcradadır** | **İcra edilməyib** |
| Əlavə resurslar əldə etmək və tədris və təlim mühitini yaxşılaşdırmaq üçün digər yerli və xarici qurumlar və ali təhsil müəssisələri ilə əməkdaşlığın artırılması | | İcradadır | |
| Struktur bölmələrə tədris sənədlərinin hazırlanması ilə bağlı təlimlərin keçirilməsi və müvafiq təlimatların hazırlanması | İcra edilib | | |
| Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının artırılması | İcra edilib | | |

| | | | |
|---|---|---|---|
| Təhsil proqramlarının icrasına dair illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması | İcra edilib | | |

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin icrası ilə bağlı hesabatı cədvəldə qeyd edin*

| № | Tövsiyə | Fəaliyyət | İcra müddəti | Görülmüş işlərlə bağlı məlumat |
|---|---|---|---|---|
| 3.1 | Əlavə resurslar əldə etmək və tədris və təlim mühitini yaxşılaşdırmaq üçün digər yerli və xarici qurumlar və ali təhsil müəssisələri ilə əməkdaşlığın artırılması | Əlavə resurslar əldə etmək və tədris və təlim mühitini yaxşılaşdırmaq üçün yerli və xarici qurumlar və ali təhsil müəssisələri arasında əməkdaşlığın artırılması | 2023 sentyabr-2028 sentyabr (müntəzəm) | 2024/2025-ci tədris ilində "Aqrar Sığorta Fondu"nun təşəbbüsü ilə Biologiya fakültəsində magistratura səviyyəsində “Bitkilərinin sığortasında risklərin və zərərlərin qiymətləndirilməsi” fənni tədris planının seçmə fənn blokuna daxil edilmişdir. Eyni zamanda "Aqrar Sığorta Fondu"nun aparıcı mütəxəssislərinin Biologiya fakültəsinin IV kurs tələbələrinə təlimlər keçməsi nəzərdə tutulmuşdur.<br>2023/2024-cü tədris ilində “Sabah Academy” tərəfindən BDU-nun bakalavriat səviyyəsinin 78 nəfər tələbəsi üçün “Sahibkarlığa giriş” fənni IE Biznes Məktəbinin və respublikamızın bu sahə üzrə tanınmış professor-müəllim heyəti tərəfindən tədris olunmuş və proqramı uğurla bitirən tələbələrə beynəlxalq səviyyədə qəbul edilən sertifikatlar verilmişdir.<br>2023/2024-cü tədris ilində IT sahəsində tanınmış şirkət olan “CodeAcademy” tərəfindən Tətbiqi riyaziyyat və kibernetika və Mexanika-riyaziyyat fakültələrinin bakalavriat səviyyəsi üzrə 100-ə yaxın tələbəsinə IT sahəsi üzrə fənləri tədris emiş və müvafiq proqramı uğurla bitirən tələbələrə beynəlxalq səviyyədə qəbul edilən sertifikatlar verilmişdir. |
| 3.2 | Tədris sənədlərinin hazırlanması ilə bağlı təlimlərin təşkili və müvafiq təlimatların hazırlanması | Tədris sənədlərinin hazırlanması ilə bağlı təlimlərin təşkili və müvafiq təlimatların hazırlanması | 2023 sentyabr-2024 dekabr | Sillabus və fənn proqramının tərtibi və təsdiqi qaydalarına dair təlimatlar, eləcə də müvafiq sənədlərin nümunəvi formaları hazırlanmış, yeni tədris ilində istifadəsinə başlanacaqdır. Müvafiq fakültə və kafedralarda mövcudluğu zəruri olan sənədlərin siyahısı hazırlanmış və tədris sənədlərinin hazırlanması ilə bağlı fakültə və kafedralarda təlimlər təşkil edilmişdir. |

| | | | | |
|---|---|---|---|---|
| 3.3 | Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının artırılması | 1. Sillabusların nümunəvi formasının və tərtibi qaydasına dair təlimatın hazırlanması;<br>2. Müvafiq məsələyə dair təlimlərin təşkili | 2023 sentyabr-2024 dekabr | 1. Sillabusların tərtibi və təsdiqi qaydasına dair təlimat, eləcə də nümunəvi forma hazırlanmış və maraqlı tərəflər ilə müzakirə olunduqdan sonra təsdiq üçün müvafiq qaydada ünvanlanmışdır;<br>2. Fənn proqramlarının tərtibi və təsdiqi qaydasına dair təlimat, eləcə də nümunəvi forma hazırlanmış və maraqlı tərəflər ilə müzakirə olunduqdan sonra təsdiq üçün müvafiq qaydada ünvanlanmışdır. |
| 3.4. | Təhsil proqramlarının icrasına dair illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması | İllik özünütəhlil hesabatlarının hazırlanması üçün təlimlərin təşkili | 2023 sentyabr-2028 sentyabr (müntəzəm) | İxtisaslar və ixtisaslaşmalar üzrə özünütəhlil hesabatlarının tərtibi üçün nümunəvi forma hazırlanmış və müzakirə üçün müvafiq qaydada təqdim olunmuşdur. |

## 4. ELMİ TƏDQİQAT

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin sayını icra statutusuna uyğun olaraq cədvəldə qeyd edin*

| Tövsiyə | Müvafiq tövsiyələr üzrə nəzərdə tutulan fəaliyyətlərin icra vəziyyəti | | |
|---|---|---|---|
| | İcra edilib | İcradadır | İcra edilməyib |
| İdarəetmənin effektiv təşkili üçün vakant vəzifələrə təyinatların aparılması | | İcradadır | |

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin icrası ilə bağlı hesabatı cədvəldə qeyd edin*

| № | Tövsiyə | Fəaliyyət | İcra müddəti | Görülmüş işlərlə bağlı məlumat |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| 4.1 | İdarəetmənin effektiv təşkili üçün vakant vəzifələrə təyinatların aparılması | Vakant vəzifələrə təyinatların aparılması | 2023 sentyabr-2028 sentyabr (müntəzəm) | Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzində müvafiq vəzifələrin tutulması üzrə müraciətlər araşdırılır, iddiaçıların həmin vəzifələr üzrə performansı yoxlanılır, yaxın vaxtlarda icrası təmin olunacaqdır. |

## 5. İDARƏETMƏ SİSTEMİ

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin sayını icra statutusuna uyğun olaraq cədvəldə qeyd edin*

| Tövsiyə | Müvafiq tövsiyələr üzrə nəzərdə tutulan fəaliyyətlərin icra vəziyyəti | | |
|---|---|---|---|
| | İcra edilib | İcradadır | İcra edilməyib |
| Beynəlxalq reytinq bazalarında irəliləyişə nail olmaq | İcra edilib | | |

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin icrası ilə bağlı hesabatı cədvəldə qeyd edin*

| № | Tövsiyə | Fəaliyyət | İcra müddəti | Görülmüş işlərlə bağlı məlumat |
|---|---|---|---|---|
| 5.1 | Beynəlxalq reytinq bazalarında irəliləyişə nail olmaq | Beynəlxalq reytinqlərdə iştirak etmək və həmin reytinqlərədə nəzərdə tutulan meyarlara uyğun fəaliyyət planları hazırlamaq və fəaliyyət planına uyğun görüləcək işlərin vaxtında yerinə yetirilməsinə nəzarət etmək | 2023 sentyabr-2028 yanvar (müntəzəm) | 2024-cü il Bakı Dövlət Universiteti dünya və regional reytinqlərdəki mövqeyini əhəmiyyətli dərəcədə gücləndirərək, qlobal akademik və sosial təsirini daha da artırıb. İlin sonu üzrə əldə olunan əsas göstəricilər aşağıdakı kimidir:<br>1. QS Quacquarelli Symonds reytinqi üzrə irəliləyişlər:<br>“QS World University Rankings 2025”-də qlobal səviyyədə 179 pillə irəliləyiş əldə edərək top-1000-ə daxil olan yeganə Azərbaycan ali təhsil müəssisəsi oldu.<br>“QS Europe Rankings 2025”-də 414-cü yerdən 336-cı yerə yüksəlməklə 78 pillə irəlilədi və regional nüfuzunu artırdı.<br>“QS Western Asia Rankings 2025”-də 19-cu yerdən 15-ci yerə yüksələrək bölgə üzrə mövqeyini gücləndirdi. |

| | | | | |
|---|---|---|---|---|
| | | | | “QS Sustainability Rankings 2025”-də 350 pillə irəliləyərək 941-950 intervalına daxil oldu və top-1000-də qərarlaşan yeganə Azərbaycan ali təhsil müəssisəsi oldu.<br>BDU, neft və qaz ixtisasları üzrə “QS Subject Rankings”də ilk dəfə 101-150 sırasına daxil olaraq ixtisas reytinqləri üzrə ən yüksək nəticə göstərən ali təhsil müəssisəsi oldu.<br>Bir ildə performansının əhəmiyyətli dərəcədə yüksəldiyi və məşğulluq göstəriciləri üzrə ölkədə lider mövqeyində olduğu üçün QS tərəfindən mükafatlandırıldı.<br>2. Times Higher Education reytinqi üzrə nəticələr:<br>THE-də Fiziki elmlər üzrə mövqeyi 27 pillə,<br>mühəndislik elmləri üzrə isə 55 pillə yüksəldi.<br>THE-nin " Impact Ranking 2024" nəticələri üzrə 175 pillə irəlilədi.<br>BDU, ilk dəfə "THE Interdisciplinary Science Ranking 2024" kateqoriyasında iştirak edərək 201-250 sırasına daxil oldu və Azərbaycan üzrə ən yüksək nəticə göstərən ali təhsil müəssisəsidir.<br>3. Greenmetric 2024 – Ətraf Mühit və Dayanıqlı İnkişaf:<br>BDU, “GreenMetric 2024”-də ilk dəfə müraciətdən sonra 607-ci yeri tutaraq, ətraf mühitin qorunması sahəsindəki səyini beynəlxalq aləmdə təsdiqlədi.<br>4. Round University Ranking - 2024<br>BDU "Round University Ranking 2024" nəticələrinə əsasən 80 pillə irəliləyərək top-1000-ə daxil oldu.<br>"Round University Ranking" tərəfindən tərtib olunan "Akademik reytinq" siyahısında 129 pillə irəliləyərək top-1000-də qərarlaşdı.<br>"Round University Ranking" tərəfindən tərtib olunan "Reputasiya reytinqi" siyahısında 151 pillə irəliləyərək top-800-də qərarlaşdı. |

**6. İNFRASTRUKTUR**

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin sayını icra statutusuna uyğun olaraq cədvəldə qeyd edin*

| Tövsiyə | Müvafiq tövsiyələr üzrə nəzərdə tutulan fəaliyyətlərin icra vəziyyəti | | |
|---|---|---|---|
| | İcra edilib | İcradadır | İcra edilməyib |
| - | - | - | - |

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin icrası ilə bağlı hesabatı cədvəldə qeyd edin*

| № | Tövsiyə | Fəaliyyət | İcra müddəti | Görülmüş işlərlə bağlı məlumat |
|---|---|---|---|---|
| 6.1 | - | - | - | - |

**7. BEYNƏLMİLƏLLƏŞMƏ**

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin sayını icra statutusuna uyğun olaraq cədvəldə qeyd edin*

| Tövsiyə | Müvafiq tövsiyələr üzrə nəzərdə tutulan fəaliyyətlərin icra vəziyyəti | | |
|---|---|---|---|
| | İcra edilib | İcradadır | İcra edilməyib |
| Veb səhifənin təkmilləşdirilməsi | İcra edilib | | |
| Beynəlmiləlləşdirmə səylərinin monitorinqi və qiymətləndirilməsi üçün planın hazırlanması | İcra edilib | | |

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin icrası ilə bağlı hesabatı cədvəldə qeyd edin*

| № | Tövsiyə | Fəaliyyət | İcra müddəti | Görülmüş işlərlə bağlı məlumat |
|---|---|---|---|---|
| 7.1 | Veb səhifənin təkmilləşdirilməsi | Universitetin veb səhifəsinin yenidən qurulması | 2023 sentyabr-2024 dekabr | Universitetin müasir tələblərə cavab verən yeni veb səhifəsi hazırlanmışdır. Yeni veb səhifə yaxın zamanlarda istifadəyə veriləcəkdir. |

| | | | | |
|---|---|---|---|---|
| 7.2 | Beynəlmiləlləşdirmə səylərinin monitorinqi və qiymətləndirilməsi üçün planın hazırlanması | Beynəlmiləlləşdirmə səylərinin monitorinqi və qiymətləndirilməsi üçün daha əhatəli plan hazırlamaq | 2023 sentyabr-2024 dekabr | Müvafiq plan müvafiq struktur bölmə tərəfindən hazırlanmışdır. |